

**Vaqif YUSİFLİ**
*Filologiya elmlər doktoru*

# Sevgi qanadlarında

## *Şair, ədəbiyyatşünas Əflatun Baxşəliyevin 70 yaşına*

O, dünyaya hisslərinin, duyğularının gözləriylə baxır. Bir insanı səsindən tutur, bu səsin onda aşıladığı emosiyaya görə o insanın fiziki görkəmi də, mənəvi aləmi də məlum olur. Əslində, bütün bu itkinin şairliyə heç bir dəxli yoxdur.

Əflatun Baxşəliyev dünyaya məhz şair gözüylə baxır. Mən onu çoxdan tanıyıram. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda ilk çalışdığı günlərdən. 1988-ci ildə həmin İnstitutda namizədlik dissertasiyasını uğurla müdafiə etdi. Elm aləmində də təsadüfi adamlar olur, namizədlik müdafiə edəndən sonra işini bitirir, daha elm adına heç nə yazmır, "quruca" adı qalır. Amma Əflatun Baxşəliyevin qələmi, deyəcəyi sözlər bitmədi, bu qələm mətbuatda onun bir ədəbiyyatşünas-alim nüfuzunu qorudu. Məqalələr, resenziyalar dərc etdirdi. Və günlərin bir günündə mən Əflatunun Xalq şairi Nəbi Xəzri haqqında monoqrafiyasını oxudum. Bu, əsl tədqiqatçı əməyindən, axtarışlarından və müstəqil alim düşüncəsindən yaranan əsər idi.

Mən Əflatun Baxşəliyevi öncə sizə alim kimi təqdim elədim. Amma o, şairdir. Əsl şair - özünəməxsus deyim, duyum tərzi olan istedadlı şair. Onun şeir kitablarından birinin adı "Sevgi qanadlarında"dır. Əflatunun on altı şeir kitabı çapdan çıxıb və bütün şeir kitablarında sevgidən, insanlara məhəbbətdən yaranan qanadları gördüm.

*Ulduzlu bir axşam, sahildəyik biz,*
*Qəlbimiz bələnib alova, oda.*
*Yaman narahatdır bu axşam dəniz,*
*Elə bil kimiysə gözləyir o da.*

Həmişə sevənlərin dənizlə ünsiyyəti olur. Bizim əksər şairlərimizin şeirlərində dənizlə sevgililəri yanaşı görürəm. Böyük şairimiz Fikrət Qocanın dənizlə bağlı çoxlu şeirlərinin içindən bu iki şeir dəniz - sevgilər münasibətini çox gözəl ifadə edir: Sənə gözlər baxmasa, gözəlləşməzdin, dəniz. Əflatunun lirik qəhrəmanı da sevgilisiylə birgə dənizə boylanırlar.

*Baxışın dənizin özüdür sanki,*
*Orda ürəklərin eşqi öpüşüb.*
*Sən mənə o qədər nazlanmısan ki,*
*Dəniz də nazlanmaq eşqinə düşüb.*

*Qonur kirpiyinə gecənin şehi,*
*Əlin ovcumdadır, hey yanıram mən.*
*Öpür yanağından dənizin mehi,*
*Səni o mehə də qısqanıram mən.*

Və sonda:

*Sahildə alovdan yandım az qala,*
*Min belə sınaqdan keçirdin gülüm.*
*Sən elə baxdın ki, baxışlarınla*
*Dənizi qəlbimə köçürdün, gülüm!*

Bu gözəl sevgi şeirini Əflatun Baxşəliyev 1990-cı ildə qələmə alıb. O şeirin yazıldığı vaxtdan 33 il keçir. Amma həm bir şeir kimi unudula bilməz, həm də səmimi insan münasibətlərini gözəl ifadə etdiyi üçün yadda qalır. Və mən Əflatun Baxşəliyevin "Taleyimin dan yeri", "Allahla ol, sən" şeir kitablarında da belə gözəl şeirlərlə tanış oldum.

Əflatun şairdir və bu mənəvi missiyanı 70 yaşına qədər ürəyi kimi təmiz saxlayıb.

Mən Əflatun Baxşəliyevin şeirlərini mövzular üzrə qruplara ayırmaq fikrində deyiləm. Nə fərqi var, nədən yazırsansa yaz, təki ortada şeir olsun. Obrazlı fikir o şeirdə yuva qursun, sən o şeiri oxuyandan sonra ruhunda, daxili dünyanda nəsə kiçik bir qığılcım alovlansın.

Əflatun Baxşəliyev Azərbaycan şeirinin heca vəzninə bütün varlığı ilə bağlıdır. Onun qoşmaları da, gəraylıları da, hecanın müxtəlif ölçülərində yazdığı şeirlər də ulu şeirimizə - hecaya sədaqətini sübut edir.

*Bəzən cadar torpaqlar da bağ olur,*
*Bəzən hər cür cah-cəlalı dağılar.*
*Daha dözmür, daha üzə ağ olur,*
*Çıxarmayaq hövsələdən dünyanı.*

*Yolu köndələndir əyrinin - nəsin,*
*Özünküdü bəd niyyəti hər pisin,*
*Möhkəm olmaz qurduğu tor iblisin,*
*Kim qurtarar bu tələdən dünyanı.*

*Çaxmaz ildırımı, yağmaz dolusu,*
*İnsandırsa müqəddəsi, ulusu.*
*Çiçəyinə baxaram göz dolusu,*
*Qoy kül olsun, qoy kül edən dünyanı.*

Dünya haqqında çox yazıb. Klassik poeziyamızda da, - müasir şeirimizdə də. Amma Əflatunun bu şeirini dünya silsiləsində yazılan ən yaxşı şeirlərin sırasına qatmaq olar.

Professor Məhərrəm Qasımlı görün nə yazır: "Başqa şairlərimiz kimi Əflatun da öz yaradıcılığında folklor qaynaqlarından qanadlanmışdır.

...Ümumiyyətlə, şair bütövlükdə götürsək, gözəllik aşiqidi, gözəlliyin yaradıcısıdır, öz poetik köklərini aşıq Qurbani, Abbas Tufarqanlı, aşıq Ələsgər poeziyasından alan şairin qoşmaları özünün mövzu rəngarəngliyi ilə seçilir. Bu şeirlərdən həm orijinal təbii poeziya janrına, həm gözəlləri vəsf edən bənzərsiz təşbeh və güclü bənzətmələrə, həm də müdrik fikirlərlə zəngin misralara rast gəlirik".

Əflatun Baxşəliyevin şeirlərində o təşbehlər, o metaforalar, digər bədii təsvir vasitələri bir də ona görə xüsusilə diqqəti cəlb edir ki, bu şeirlərdəki bədii təsvir vasitələrinin əksəriyyəti orijinaldır.

Baxın:

*Yağış-yağış yollarına çilənnəm,*
*Gözlərimin yaşı məndən nə istər?*

* * *

*Dağ çayı ovçudan qaçan maraldı,*
*Qısılıb dərəyə dincini alar.*

* * *

*Bəlkə göbələklər meşə gözəlin*
*Yaşıl xalatının düyməléridir.*

* * *

*Yansam əgər məhəbbətlə,*
*Su səpməyin gözüm üstə.*

Əflatun Baxşəliyevi mən günün şairi, hər bir hadisəyə reaksiya verən "ictimai şair" kimi təqdim etmək istəmirəm. Amma o da bu məmləkətin şairidir və məmləkətdə baş verən hadisələrə biganə qala bilməz.

Baxın:

*Vaqifin durnası qatarsız qalıb,*
*Bulaqlar kamansız, həm tarsız qalıb,*
*Neçə bahardır ki, baharsız qalıb,*
*Solubdu çəməni, çölü Şuşanın.*

*Neçə cahangirə verməyibdi can,*
*Başından getməyib nə çən, nə duman.*
*Qovğalar içində bərkiyib hər an,*
*İndi daş altdadı əli Şuşanın.*

Amma indi Şuşa azaddır və Əflatunun yeni şeirlərində müzəffər Ali Baş Komandanın, Azərbaycan ordusunun qələbələri öz poetik əksini tapır.

Əflatunun heca şeirinə sonsuz sədaqətindən söz açdım, amma o, bu yaxınlarda mənə "Sevda qoxulu çiçəklər" şeir kitabını hədiyyə etdi - bu kitabda Əflatunun müxtəlif illərdə qələmə aldığı qəzəlləri cəm olub. Filologiya üzrə fəlsəfə doktoru Ülkər Zakirqızı onun qəzəllər kitabına "ön söz" yazıb və Əflatunun qəzəl yaradıcılığını şərh edib. Yazır ki: "Əflatun müəllimin qəzəlləri müxtəlif məzmunda qələmə alınmışdır. Buda o, oxucunun gözlərində lirik duyğuları tərənnüm edən şair olmaqla yanaşı, cəmiyyətdə çatışmazlıqlara, ətrafında olub keçənlərə laqeyd qalmayan insan kimi də görünür".

Qəzəl bizim ədəbiyyatımızın ən çox yaşarı janrlarından biridir. Təsəvvür edin, klassik şeir şəkillərindən əksəriyyətinə (müxəmməs, müsəddəs, tərcibənd və s.) çox nadir hallarda müraciət olunur, amma qəzəl köhnəlmir ki, köhnəlmir. İndi müasir şairlərimizin bir çoxu qəzələ müraciət edirlər. Çünki "qəzəldir səfabəxşi-əhli nəzər".

Rasim əruza bələddir: Mən həmişə müasir şairlərimizin qəzəllərindən "bir dad, bir duz" axtarmışam.

Görək bizim bu müasir şairlərimiz Füzuli ənənələrinə necə bağlıdır? Axı Füzuli qəzəlin bütün Şərq ədəbiyyatında mükəmməl nümayəndələrini yaradan, qəzəli poeziyamızda ərşi-əsaya qaldıran bir şairdir. Təbii ki, onu təqlid yox, elə Füzuli ruhunda gözəl qəzəllər yazmaq lazımdır və Əflatunun əksər qəzəllərində bunu görürük.

Yalnız bircə misal gətirəcəyəm:

*Özümü sevgilimin hüsnünə qurban gəzirəm,*
*Olmuşam qaşlarının tağına heyran gəzirəm.*

*Bu sağalmaz dərd imiş sən dəmə hicran mərəzi,*
*Mən onun çarəsinə bir ulu loğman gəzirəm.*

*Qorxuram o gözəlim, bir gün gələr yox söyləyər,*
*Odur ki, sevdiyimi saxlayıb pünhan gəzirəm.*

*Düşmüşəm səhralara, çöllərə eşqim*
*Söyləyib sevgim ilə Məcnunu yalan, gəzirəm.*

*Yoxsa bir cəllad olub Əflatuna şux baxışın,*
*Əlləriylə yarımın qətlinə fərman gəzirəm.*

Əflatun Baxşəliyevin 70 yaşı tamam olur və onu ürəkdən təbrik edirəm. Yazımın əvvəlində qeyd etdim ki, "O, dünyaya hisslərinin, duyğularının gözləriylə baxır". Amma o duyğular, o hisslər o qədər görümlüdür ki, Əflatunun şeirlərində neçə gözlər baxır dünyaya...

Sözümü Əflatunun bu misraları ilə bitirirəm:

*Məcrama sığmıram aşıb-daşıram,*
*Özümdən özümə zirvə aşıram.*
*Sən bu hikmətə bax, ululaşıram,*
*Mən şeir yazanda özüm oluram!*